SOSİAL

# Bir ildə SOCAR-ın işçi sayı 3 minə yaxın azalıb

1 saat öncə




SOCAR-da 5 min nəfər işdən çıxarılır? 'İndi ailəni necə saxlayım?' (Arxiv videosu. 2021)

Təkcə bir ildə Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) faktiki işçi sayı 3 minə yaxın azalıb.

Qurumun bu gün, avqustun 12-də açıqladığı 2025-ci il üzrə dayanıqlıq hesabatında işçilərin sayı 45 min 227 nəfər göstərilir.

Halbuki, 2025-ci il yanvarın 1-i üçün işçi sayı 48 min 69 nəfər qeyd edilib.

Həmin rəqəmlərdən bəlli olur ki, **son bir ildə SOCAR-ın işçilərinin sayı 2 min 842 nəfər azalıb.**

Son vaxtlar hüquq müdafiəçiləri SOCAR-da kütləvi məcburi ixtisarların olmasına dair şikayətlərin artdığını vurğulayırlar.

Bu qurum rəsmilərindən hələlik bu şikayətlərə konkret münasibət almaq mümkün olmayıb.

## SOCAR-dan izah

Amma bundan əvvəl avqustun 4-də SOCAR-dan "Report"a bildirilmişdi ki, kütləvi ixtisarlarla bağlı bir sıra sosial media resurslarında yayılan, hər hansı rəsmi mənbəyə əsaslanmayan rəqəmlər və iddialar həqiqəti əks etdirmir.

Vurğulandığına görə, 2024-2025-ci illər ərzində SOCAR-da işçi dövriyyəsi üzrə orta illik göstərici 2.4 faiz olub ki, bu da SOCAR-ın əmək bazarında sabit işəgötürən olduğunu təsdiq edən mühüm göstəricilərdəndir. Üstəlik, qeyd edilən işçi dövriyyəsinin əksəriyyəti işçilərin təbii axını hesabına baş verib.

Həmçinin bildirilib ki, SOCAR-ın 2035-ci ilədək Korporativ Strategiyanın əsas istiqamətlərindən biri korporativ idarəetmənin təkmilləşdirilməsi, əməliyyat səmərəliliyinin artırılması, biznes proseslərinin optimallaşdırılması və insan kapitalının dayanıqlı inkişafının təmin edilməsidir: **"Bu istiqamətdə həyata keçirilən tədbirlər təşkilati strukturun təkmilləşdirilməsi, biznes proseslərinin optimallaşdırılması və mövcud resursların daha səmərəli idarə olunmasına xidmət edir. Sözügedən proseslər qüvvədə olan əmək qanunvericiliyinin tələblərinə uyğun şəkildə həyata keçirilir".**

Bütün bunlarla belə, əvvəl də SOCAR-ın işçilərinin sayında azalmaların olduğu bildirilirdi. Amma rəqəmin illər üzrə bu qədər kəskin olduğu açıqlanmamışdı. Bundan əvvəlki beş ildə ümumilikdə 3 min 600-dən çox işçinin azaldığı bildirilirdi.

## Xatırlatma

SOCAR Azərbaycanın milli neft şirkətidir. Şirkət Azərbaycan prezidentinin 1992-ci ildə imzaladığı fərmanla yaradılıb.

Məqsəd kimi ölkənin neft sərvətlərindən istifadəni vahid dövlət siyasəti əsasında həyata keçirmək, neft sənayesinin idarəetmə strukturunu təkmilləşdirmək və yanacaq-enerji kompleksinin inkişafını təmin etmək göstərilir.

SOCAR-ın fəaliyyəti, əsasən, altı sahəni - neft-qaz yataqlarının kəşfiyyatını, hasilatını, emalını, neft kimyasını, enerjidaşıyıcıların nəqlini və xidmətlərin göstərilməsini əhatə edir.

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur